public council.az

ictimaishura.az

# İCTİMAİ ŞURA
# PUBLIC COUNCIL



“Mən bir daha demək istəyirəm ki, ictimai nəzarət olmasa, biz istəyimizə nail ola bilmərik. İctimai nəzarət nə deməkdir? Vətəndaşlar daha fəal olmalıdırlar. Onlar xoşagəlməz hallarla üzləşəndə bu barədə məlumat verməlidirlər ki, biz işləri tənzimləyək, xoşagəlməz halların qarşısını alaq.”

***İlham Əliyev***

Azərbaycan Respublikasının
Prezidenti

№ 03

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi
yanında İctimai Şuranın fəaliyyəti
2021 - 2023

# Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İctimai Şuranın fəaliyyəti

**PUBLICCOUNCIL.AZ**
**ICTIMAISHURA.AZ**

***İnformasiya bülleteni açıq mənbələrdə yayımlanan məlumatlar əsasında hazırlanıb.***

Bakı şəhəri – 2023

## Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İctimai Şuranın fəaliyyəti 2021- 2023

12 iyun 2021-ci il tarixində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi[1] yanında İctimai Şuraya seçkilər keçirilib.



Seçkidə vətəndaş cəmiyyəti institutlarının seçki gününə 10 gün qalanadək qeydiyyatdan keçmiş 102 təmsilçisindən 85-i seçici qismində iştirak edib.

Seçki prosesinin sonunda müvafiq qaydada möhürlənmiş seçki qutusu açılaraq səslər Seçki Komissiyası üzvlərinin iştirakı ilə hesablanıb. İstifadə olunmuş 85 seçki bülletenindən 2-si etibarsız sayılıb.
Səsvermədə iştirak edənlərin yarıdan çoxunun səsini toplamış 2 namizəd İctimai Şuranın tərkibinə seçiliblər.



[1] *2021-ci il 11 oktyabr tarixində Azərbaycan Respublikası Prezidentinin 1464 nömrəli Fərmanı əsasında Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi adlandırılıb.*

Bu seçkilər nəticəsində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında İctimai Şuranın tərkibi tam formalaşmadığı üçün 16 iyun 2021-ci il tarixində nazirliyin Bakı şəhəri, Səbail rayonu, Zərifə Əliyeva küçəsi 77 ünvanında yerləşən inzibati binasında seçkilərin II turu keçirilib.



Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında İctimai Şuranın tərkibinin tam formalaşdırılması məqsədilə 16 iyun 2021-ci il tarixində nazirliyin inzibati binasında seçkilərin II turu keçirilib.

Seçkidə vətəndaş cəmiyyəti institutlarının qeydiyyatdan keçmiş 102 təmsilçisindən 95-i seçici qismində iştirak edib.

İstifadə olunmuş 95 seçki bülletenindən 10-u etibarsız sayılıb. Səsvermədə ən çox səs toplamış 8 namizəd İctimai Şuranın tərkibindəki boş yerlərə seçilib.



Beləliklə, seşkilərin ilk turunda İctimai Şuranın tərkibinə seçilmiş iki namizəd də nəzərə alınmaqla, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında İctimai Şuranın 10 nəfərdən ibarət tam tərkibi formalaşdırılıb.

## Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İctimai Şuranın tərkibi 2021 – 2023

1. **Abasbəyli Siruz Hüseyn oğlu** – "Rabitə və İnformasiya Texnologiyaları Mütəxəssisləri" İctimai Birliyinin sədri, sabiq rabitə naziri, İctimai şuranın sədri
2. **Eyyubov Fərhad Çinar oğlu** – "Müstəqil Nəqliyyatçılar Məsləhət və İnformasiya" İctimai Birliyinin üzvü, Azərbaycan Texniki Universitetinin dosenti, texnika elmləri namizədi, ictimai şuranın sədr müavini
3. **Qurbanov Qalib İslam oğlu** – "Azərbaycan İnternet Cəmiyyəti"nin sədri, ictimai şuranın sədr müavini
4. **Məhərrəmova Elnarə Aşır qızı** – "Regional Sosial-İqtisadi İnkişaf üzrə Maarifləndirmə" İctimai Birliyinin sədri, İctimai şuranın katibi
5. **Mehdiyev Nurəddin Səftər oğlu** – "Virtual Qarabağ" Kommunikasiya Texnologiyaları Gənclər İctimai Birliyinin sədri, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının üzvü
6. **Pərdəşünas Fərid Bayram oğlu** – Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2021-ci il Gənclər üçün Prezident mükafatına layiq görülüb. "Elektron Sosial Aktivlik Sistemi Könüllüləri" İctimai Birliyinin üzvü
7. **Kazımov Fərid Fərman oğlu** – "Azərbaycan İnnovasiyaların İxracı Konsorsiumu" İctimai Birliyinin icraçı direktoru
8. **Muradov Elməddin Nadir oğlu** – "Jurnalistika və İnkişaf Mərkəzi" İctimai Birliyinin sədri
9. **Nəbiyev Qalib Təsim oğl**u – "Sosial-İqtisadi İnkişafa Dəstək" İctimai Birliyinin sədri
10. **Osman Gündüz Mehdi oğlu** – "Multimedia İnformasiya Sistemləri və Texnologiyaları Mərkəzi" İctimai Birliyinin direktoru

## Nazir Rəşad Nəbiyev İctimai Şuranın üzvləri ilə görüşüb



**5 İyul 2021**

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Rəşad Nəbiyev NRYTN yanında İctimai Şuranın üzvləri ilə görüş keçirib.




Rəşad Nəbiyev İctimai Şuranın tərkibinin formalaşdırılması məqsədilə keçirilmiş seçkilərdə uğur qazanaraq seçilmiş Şura üzvlərinin hər birini təbrik edib, onlara fəaliyyətlərində müvəffəqiyyətlər arzulayıb.

Nazir bildirib ki, İctimai Şura ictimaiyyətlə qarşılıqlı fəaliyyətin gücləndirilməsi, sağlam dialoqun qurulması, eləcə də şəffaflığın təmin edilməsində böyük rola malikdir.

Rəşad Nəbiyev sahə üzrə mövcud vəziyyət və perspektivlər barədə ətraflı danışıb, İctimai Şura üzvlərinin rəy və təkliflərini dinləyib.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında İctimai Şuranın üzvləri nazir Rəşad Nəbiyevə səmimi ortamda keçən görüşə görə minnətdarlıqlarını bildiriblər. Onlar ictimai




iştirakçılığın təmin olunmasının nazirliyin işinə müsbət istiqamətdə təsir göstərəcəyinə əminliklərini ifadə ediblər.




Sonra İctimai Şuranın ilk iclası keçirilib. İclasda Şuranın sədri, sədr müavinləri və katibi seçilib.

Şuranın sədri "Rabitə və İnformasiya Texnologiyaları Mütəxəssisləri" İctimai Birliyinin sədri, sabiq rabitə naziri Abasbəyli Siruz Hüseyn oğlu, sədr müavinləri "Azərbaycan İnternet Cəmiyyəti"nin sədri Qurbanov Qalib İslam oğlu və "Müstəqil Nəqliyyatçılar Məsləhət və İnformasiya" İctimai Birliyinin üzvü, Azərbaycan Texniki Universitetinin dosenti, texnika elmləri namizədi Eyyubov Fərhad Çinar oğlu, katibi "Regional Sosial-İqtisadi İnkişaf üzrə Maarifləndirmə" İctimai Birliyinin sədri Məhərrəmova Elnarə Aşır qızı olub.

## İctimai Şuranın növbəti iclası keçirilib.

İclasda Ictimai Şuranın “Fəaliyyət planı”, görüş qrafikləri, növbəti aylarda görüləcək işlər müzakirə edilib.



Təşkilat üzvləri İctimai Şuranın görüş qrafikləri, növbəti aylarda görüləcək işləri müzakirə edərək, onun tez bir zamanda hazırlanıb Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə təqdim edilməsi məsələsini səsvermə əsasında qəbul ediblər.

Növbəti aylarda internetlə bağlı problemlərin, Azərbaycanın İT məhsullarının ixracının artırılmasına təsir edən maneələrin, yol hərəkəti təhlükəsizliyinin, hava və dəniz nəqliyyatında mövcud problemlərin müvafiq qurumların nümayəndələrinin iştirakı ilə müzakirəsi nəzərdə tutulur.

Sonra cari məsələlərə baxılıb. Qeyd edək ki, növbəti iclasın sentyabr ayında keçirilməsi nəzərdə tutulur.

## Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında İctimai Şuranın növbəti iclası keçirilib.



**17 Sentyabr 2021**

Görüşdə İctimai Şuranın üzvləri, "Avirtel", "Sazz-LTE", "Smart systems technology", "Azintex" internet provayderlərinin rəhbərləri və internet üzrə ekspert Eldar Cəfərov iştirak edib.

İclasda internetlə bağlı problemlərin araşdırılması və onların həlli istiqamətində müzakirələr aparılıb.

İctimai Şuranın sədri Siruz Abasbəyli çıxış edərək bu toplantının nazirlikdə keçiriləcək birgə görüşün ilkin müzakirəsi olduğu və bu işdə rəhbərliyin İctimai Şuranın sədr müavini Qalib Qurbanova həvalə edildiyini diqqətə çatdırıb.

Qalib Qurbanov çıxışında hazırda ölkəmizdə internet sahəsində böyük nailiyyətlərin əldə olunduğunu söyləyib. Şuranın sədr müavini əlavə edib ki, bu sahədə müəyyən problemlər də mövcuddur.



“İctimai Şura olaraq bu gün Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin problemlərin həlli istiqamətində addımlar atmağa hazır olduğu və diqqət ayırdığını müşahidə edirik”, – deyə Qalib Qurbanov vurğulayıb.

Sonra internet provayderlərinin rəhbərləri bu sahə üzrə mövcud problemləri səsləndiriblər.

## İctimai Şuranın təşəbbüsü ilə internet provayderləri ilə görüş keçirilib

**7 Oktyabr 2021**



Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında İctimai Şuranın təşəbbüsü ilə Azərbaycanda internet xidmətlərinin inkişaf etdirilməsi ilə bağlı mövcud vəziyyətin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş görüş keçirilib.

Tədbirdə İctimai Şuranın üzvləri, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Aparatının rəhbər şəxsləri, ölkədə fəaliyyət göstərən mobil rabitə operatorları, internet provayderləri, bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlərin nümayəndələri iştirak ediblər.




Görüş iştirakçılarına Azərbaycanda internet təminatının yaxşılaşdırılması, istifadəçilər üçün internetin daha əlçatan olması, mövcud infrastrukturun yenilənməsi istiqamətində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən həyata




keçirilən tədbirlər və qarşıda duran vəzifələr haqqında ətraflı məlumat verilib.

Müzakirələr zamanı bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlərin nümayəndələrini maraqlandıran suallara cavab verilib, onların təklifləri dinlənilib.

Həmçinin internet xidmətlərinin təminatının daha da yaxşılaşdırılması üçün dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsinin vacibliyi və aspektləri, internet xidmətinin keyfiyyəti və tarifləri müzakirə olunub. İstifadəçilərin dayanıqlı, keyfiyyətli və fasiləsiz internet xidmətləri ilə təmin edilməsi, problemlərın aradan qaldırılmasına çevik reaksiya verilməsinin vacibliyi provayderlərin diqqətinə çatdırılıb.

Sonda tədbir iştirakçıları belə bir görüş təşkil edildiyi üçün İctimai Şuraya öz minnətdarlığını bildirib və bu formatda müzakirələrin gələcəkdə də keçirilməsinin məqsədəuyğun olduğunu qeyd ediblər.

## İctimai Şura və MHM-in nümayəndələri arasında görüş keçirilib

### 24 Noyabr 2021

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İctimai Şura və nazirliyin Məlumat Hesablama Mərkəzinin (MHM) nümayəndələri arasında görüş keçirilib.



Görüşdə müasir tələblərə uyğun yeni nəsil elektron imzanın Azərbaycanda tətbiqi məsələləri geniş müzakirə olunub.

İctimai Şuranın sədri Siruz Abasbəyli Azərbaycanda süni intellekt və müasir kibertəhlükəsizlik protokolları nəzərə

alınmaqla elektron imza sertifikatının verilməsi və bu istiqamətdə beynəlxalq təcrübəyə əsaslanmağın zəruriliyini qeyd edib.



MHM-in direktor müavini İnarə Vəliyeva İctimai Şura üzvlərinə nazirlik tərəfindən ölkəmizdə bu istiqamətdə aparılan işlər haqqında məlumat verib. Direktor müavini bildirib ki, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin innovasiyaların inkişaf etdirilməsi yönündə apardığı dövlət siyasətinin tərkib hissəsi olan elektron identifikasiya həlli vətəndaş məmnunluğunu artırmaqla yanaşı, rəqəmsal biznesin inkişafını da təşviq edəcək.

Görüşdə qeyd olunub ki, ölkəmizdə rəqəmsal transformasiya istiqamətində aparılan işlər, o cümlədən yeni nəsil elektron imza quruculuğu cəmiyyətin, eləcə də iqtisadiyyatın tələbidir.

## İctimai Şuranın rəhbərliyi Dövlət Avtomobil Nəqliyyatı Xidmətində görüş keçirib

**7 May 2022**

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İctimai Şuranın sədri Siruz Abasbəyli və sədr müavini Qalib Qurbanov Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi Anar Rzayevlə görüşüb.

Görüşün keçirilməsində məqsəd bu yaxınlarda İctimai Şuranın təşkil edəcəyi "Şəhər mobilliyinin müasir problemləri" mövzusu ətrafında dinləmənin müzakirəsi olub.

Müvafiq qurumların və ictimaiyyətin aktiv iştirakı, iş proqramı və əsas istiqamətlər haqqında fikir mübadiləsi aparılıb.

## Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İctimai Şuranın növbəti iclası keçirilib

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İctimai Şuranın növbəti iclası keçirilib.

İclasda nazirliyin Aparat rəhbərinin müavini Asif İsmayılov və Şuranın 8 üzvü iştirak edib.
İctimai Şuranın sədri Siruz Abasbəyli iclası açaraq seçkilərdən sonrakı dövrdə görülən işlər haqqında qısa məlumat verib.



İclasda çıxış edən nazirliyin Aparat rəhbərinin müavini Asif İsmayılov Şuranın işinin daha da keyfiyyətli olması üçün nazirlik tərəfindən bütün imkanların yaradılmasına çalışacaqlarını bildirib.
Şura üzvlərindən Osman Gündüz, Qalib Qurbanov, Fərhad Eyyubov, Fərid Kazımov, Elnarə Məhərrəmova, Fərid Pərdəşünas mövcud çətinliklər və həlli yolları barədə danışıb.
İclasın sonunda qarşıdakı aylarda görüləcək işlər haqda operativ planın hazırlanması təklif edilib. Osman Gündüzün, Fərid Kazımovun, Fərhad Eyyubovun verdiyi təkliflər İş Planına daxil edilib.

## İctimai Şuranın üzvləri "Azərpoct" MMC-də görüş keçirib



**24 İyun 2022**
Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İctimai Şuranın üzvləri "Azərpoct" MMC-nin İdarə Heyətinin sədri Əfqan Cəlilovla görüşüblər. Görüş zamanı İctimai Şuranın sədri Siruz Abasbəyli Şuranın son zamanlar gördüyü işlər və gələcək planlar haqqında məlumat verib. Görüşün "Azərpoct" MMC-nin işi ilə tanış olmaq, mövcud olan problemlərin həlli yollarını araşdırmaq məqsədi daşıdığı vurğulanıb.

"Azərpoct" MMC-nin İdarə Heyətinin sədri Əfqan Cəlilov İctimai Şuranın üzvlərini müəssisədə həyata keçirilən yeniliklər barədə məlumatlandırıb.

## İctimai Şuranın növbəti iclası keçirilib

### 27 Yanvar 2023



İclasda 2023-cü ilin birinci yarısında görüləcək işlərin planı təsdiq edilib. İş Planına əsasən I yarımillikdə nazirliyin İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi və İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyində görüşlərin keçirilməsi və yeniliklərlə tanışlıq nəzərdə tutulur.

## İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyində İctimai Şuranın üzvləri ilə görüş keçirilib



### 23 Fevral 2023

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İctimai Şuranın üzvləri ilə görüş keçirilib. Görüşdə agentlik tərəfindən həyata keçirilən işlər və perspektiv planlar haqqında məlumat verilib.

## İctimai Şura üzvləri növbəti görüş keçirib




**18 Mart 2023**

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İctimai Şura üzvləri "Onlyoffice" şirkətinin Azərbaycan nümayəndəliyi - "ROBERTSON AND BLUMS"ın rəhbərliyi ilə görüşüb.

Görüş zamanı şirkətin məhsullarına dair təklifləri dinlənilib. Təkliflərin əlverişli və müasir tələblərə cavab verdiyi vurğulanıb.

PUBLICCOUNCIL.AZ
ICTIMAISHURA.AZ